**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

10.01.2019-cu il

**Biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində biznesə başlama üzrə aparılmış islahatlarla bağlı İcra və Kommunikasiya Planı**

| Sıra №-si | Görüləcək işlər | İcraçı qurumlar | İşçi qrupu üzrə məsul şəxslər | Hədəf qrupları (benifisiarlar) | Son icra müddəti |
|---|---|---|---|---|---|
| **1.** | **Müvafiq normativ hüquqi aktlarla verilmiş tapşırıqların icrası sahəsində (o cümlədən inzibatçılığın təkmilləşdirilməsi)** | | | | |
| **1.1.** | **“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1447-VQD nömrəli Qanununun tətbiqi və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2018-ci il tarixli Fərmanının icrası üzrə** | | | | |
| 1.1.1. | “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklər nəzərə alınmaqla “Kommersiya hüquqi şəxslərin onlayn qeydiyyatı” elektron xidməti üzrə inzibati reqlamentdə dəyişikliklərin edilməsi | Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi | Ələkbər Məmmədov, Adil Əliyev | Kommersiya hüquqi şəxs yaratmaq istəyən şəxslər | 1 mart 2019-cu il |
| 1.1.2. | “Kommersiya hüquqi şəxslərin onlayn qeydiyyatı” elektron xidmətinin inzibati reqlamenti üzrə proqram təminatının texniki tapşırığının hazırlanması və müvafiq proqram təminatına dəyişikliklərin edilməsi | Vergilər Nazirliyi | Ələkbər Məmmədov | Aidiyyəti qurumlar | 15 yanvar 2019-cu il |
| 1.1.3. | Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin dövlət qeydiyyatı zamanı mobil nömrənin identifikasiyası məqsədilə Vergilər Nazirliyinin | Vergilər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar | Ələkbər Məmmədov | Aidiyyəti qurumlar | 1 mart 2019-cu il |

| | | | | | |
|---|---|---|---|---|---|
| | sorğusunun real vaxt rejimində mobil operatorlar tərəfindən cavablandırılması ilə bağlı razılaşma əldə edilməsi | Nazirliyi | | | |
| 1.1.4. | "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklər nəzərə alınmaqla "Vergi orqanlarında kommersiya qurumlarının dövlət qeydiyyatının aparılmasına dair Metodiki Göstəriş"də müvafiq dəyişikliklərin aparılması | Vergilər Nazirliyi | Ələkbər Məmmədov | Vergilər Nazirliyi | 1 mart 2019-cu il |
| **1.2.** | **"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1448-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2018-ci il tarixli Fərmanının icrası üzrə** | | | | |
| 1.2.1. | Adıçəkilən Qanunun tətbiqi ilə bağlı "Əmək müqaviləsi bildirişinin qeydiyyatı" informasiya sistemində müvafiq dəyişikliklərin edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi | Elnur Süleymanov, Ələkbər Məmmədov | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi | 15 yanvar 2019-cu il |
| **1.3.** | **"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1446-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli Sərəncamının icrası üzrə** | | | | |
| 1.3.1. | Dövlət qeydiyyat şəhadətnaməsinin barkodla çap edilməsinin təmin edilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi | Vergilər Nazirliyi | Ələkbər Məmmədov | Kommersiya hüquqi şəxslər | 18 yanvar 2019-cu il |
| 1.4. | Müvafiq normativ hüquqi aktlarda edilmiş dəyişikliklərlə bağlı təqdimatın hazırlanması və Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinə təqdim edilməsi | Vergilər Nazirliyi | Ələkbər Məmmədov | Aidiyyəti qurumlar | 15 yanvar 2019-cu il |
| 1.5. | Müvafiq normativ hüquqi aktlarda edilmiş dəyişikliklərlə bağlı maarifləndirici-məlumatlandırıcı bukletlərin hazırlanması və çap edilməsi | Vergilər Nazirliyi | Ələkbər Məmmədov | Sahibkarlıq subyektləri | 31 yanvar 2019-cu il |
| 1.6 | Biznesə başlama üzrə aparılmış sadələşdirmə işləri ilə bağlı hazırlanmış təqdimat materiallarının icraçı qurumların rəsmi internet səhifələri və digər informasiya resursları vasitəsi ilə yayımlanması | Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | İşçi qrupun bütün üzvləri | Hüquqi və fiziki şəxslər, KİV, konsaltinq şirkətləri | Yanvar-fevral 2019-cu il |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.7. | “Doing Business” hesabatının “Vergilərin ödənilməsi (“Paying taxes”)” indikatoru üzrə bəyannamələrin tərtib olunmasına sərf olunan vaxt indikatorunun faktiki göstəricilərlə əvəz olunması məqsədilə aparıcı konsaltinq şirkətləri və aidiyyəti təşkilatlarla görüşlərin keçirilməsi və müzakirələrin aparılması, habelə bu sahədə vaxt indikatorunun azaldılmasına nail olunması üzrə digər tədbirlərin görülməsi | Vergilər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | İlkin Vəliyev, Elşən Rəhimli | Konsaltinq şirkətləri | 31 yanvar 2019-cu il<br>15 fevral 2019-cu il |
| **2.** | **Aidiyyəti qurumların müvafiq sahə üzrə əməkdaşları və bu sahəyə məsul şəxslərlə iş sahəsində** | | | | |
| 2.1. | Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı Vergilər Nazirliyi və yerli vergi orqanlarının qeydiyyat, uçot və xidmət, o cümlədən Çağrı Mərkəzinin təlim keçiriləcək əməkdaşlarının müəyyən edilməsi | Vergilər Nazirliyi | Ələkbər Məmmədov | Qeydiyyat, uçot, xidmət, o cümlədən Çağrı Mərkəzinin əməkdaşları | 18 yanvar 2019-cu il |
| 2.2. | Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı Vergilər Nazirliyi və yerli vergi orqanlarının qeydiyyat, uçot və xidmət, o cümlədən Çağrı Mərkəzinin əməkdaşları üçün seminarların/treninqlərin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi | Vergilər Nazirliyi | Ələkbər Məmmədov | Qeydiyyat, uçot, xidmət, o cümlədən Çağrı Mərkəzinin əməkdaşları | 23 yanvar 2019-cu il<br>25 yanvar 2019-cu il<br>31 yanvar 2019-cu il |
| **3.** | **Sahibkarlıq subyektləri ilə iş sahəsində** | | | | |
| 3.1. | Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı sahibkarlıq subyektləri üçün seminar/treninqlərin, görüşlərin keçirilməsi | Vergilər Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, İqtisadiyyat Nazirliyi | Ələkbər Məmmədov, Yalçın Əzizov | Sahibkarlıq subyektləri | 24 yanvar 2019-cu il<br>28 yanvar 2019-cu il<br>30 yanvar 2019-cu il |
| 3.2. | Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı sahibkarlıq subyektləri üçün turların təşkili | Vergilər Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, İqtisadiyyat Nazirliyi | Ələkbər Məmmədov, Yalçın Əzizov | Sahibkarlıq subyektləri | 29 yanvar 2019-cu il |
| 3.4. | Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı vergi ödəyicilərinin elektron kabinetinə məlumatların göndərilməsi | Vergilər Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, İqtisadiyyat Nazirliyi | Ələkbər Məmmədov, Yalçın Əzizov | Sahibkarlıq subyektləri | 18 yanvar 2019-cu il |
| 3.5. | Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı vergi ödəyiciləri ilə sorğuların keçirilməsi | Vergilər Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Ələkbər Məmmədov | Sahibkarlıq subyektləri | 1 mart 2019-cu il |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4.** | **Aparıcı konsaltinq şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları ilə iş sahəsində** | | | | |
| 4.1. | Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı aparıcı konsaltinq şirkətləri ilə görüşlərin təşkili | Vergilər Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Ələkbər Məmmədov | Konsaltinq şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları | 1 fevral 2019-cu il |
| 4.2. | Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı beynəlxalq və yerli qeyri-hökumət təşkilatları ilə görüşlərin təşkili | | | | 12 fevral 2019-cu il |
| **5.** | **Aparıcı kütləvi informasiya vasitələri və digər media qurumları ilə iş sahəsində** | | | | |
| 5.1. | Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı aparıcı kütləvi informasiya vasitələri və digər media qurumları üçün mətbuat konfransının keçirilməsi | Vergilər Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Ələkbər Məmmədov | KİV və media mənsubları | 22 yanvar 2019-cu il |
| 5.2. | Qanunvericiliyə edilmiş dəyişikliklərə dair təqdimatın, bukletin, video çarxların sosial şəbəkələrdə yayımlanması | | | | Mütəmadi |